

# Təbabətin filosofu və bəstəkarı

**Azərbaycan tibb elminin inkişafında böyük xidmətləri olan, XX əsrin fenomeni, bənzərsiz cərrah, akademik Mustafa bəy Topçubaşovun anadan olmasından 120 il ötür**

**Görkəmli ziyalımızı ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, "İrəvan ziyalıları" (1999) kitabının müəllifi Əsgər Zeynalovla birgə xatırlayırıq. "Mustafa bəy Topçubaşov" sənədli filminin (jurnalist Nadejda İsmayılova və rejissor Yalçın Əfəndiyev) hazırlanmasında da yaxından iştirak etmiş Əsgər müəllimin söhbəti Topçubaşovlar nəslinin parlaq nümayəndəsi – cərrah, ictimai xadim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın həqiqi, Bolqarıstan EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, 1981-ci il noyabrın 20-də əbədiyyətə qovuşmuş Mustafa bəy Topçubaşovun əsl portretini yaradır...**



– Halbilən dostlarımla söhbətlər zamanı, hərdən, "mənim dövlətim, mənim varım" deyə yad etdiyimiz böyük İrəvan ziyalılarından biridir azman elm adamı, qızıl əllər sahibi Mustafa bəy Topçubaşov. Əməkdar elm xadimi, tibb elmləri doktoru Qəhrəman Qəhrəmanov onu "SSRİ-nin bir nömrəli cərrahı", Nəsrəddin Tusidən sonra Azərbaycanın ən böyük tibb alimi, Azərbaycan cərrahiyyə məktəbinin banilərindən biri adlandırmışdır.



Əlimərdan bəy Topçubaşov



Cəfər bəy Topçubaşov

Topçubaşovun həyatı kifayət qədər keşməkeşli və maraqlı olub. Elitar məclislərin birində Üzeyir bəy "Əgər təbabəti musiqi kimi səsləndirmək mümkün olsaydı, bizim Mustafa bəy onun ən görkəmli bəstəkarları kimi məşhurlaşardı" – deyib. Akademik Heydər Hüseynov isə: "Təbabətin filosofu adı Mustafa bəyə daha çox yaraşır" – dedikdə Üzeyir bəy əlavə edib: "Qoy Topçubaşov təbabətin filosofu və bəstəkarı olsun, ikiqat əziyyət çəksin, – deyə zarafatla cavab verib.

**– Əsgər müəllim, Topçubaşovlar nəslinin Azərbaycan tarixinə bəxş etdiyi görkəmli şəxsiyyətlər çox olub...**

– İrəvanda 4 xan, 25 bəy nəsli vardı. Topçubaşovlar həmin bəy nəsillərindən biri, ən seçilmişi olub. Mustafa Ağabəy oğlu Topçubaşov 1895-ci il avqustun 5-də İrəvan şəhəri yaxınlığındakı Göykümbət kəndində doğulub. Qızı Zenfira xanımın dediyi kimi, Göykümbət kəndi Topçubaşovların ata-baba malikanəsi idi.

Ağabəyin dörd övladı olub: Rza bəy, Mehdi bəy, Məhəmməd bəy, Mustafa bəy. İrəvan gimnaziyasının məzunları olan bu qardaşlar sonralar Rusiyanın ali məktəblərində təhsil alaraq müxtəlif peşələrə yiyələniblər. Rza bəy hüquqşünas, Mehdi bəy iqtisadçı, Məhəmməd bəy isə tanınmış energetik olub. Peterburq universitetinin professoru Mirzə Cəfər Topçubaşov (1784-1869) və ilk Azərbaycan Demokratik Respublikası Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov (1860-1934) da həmin kökə mənsubdur.

Elə Mustafa bəy 30-40-cı illərdə həmin Əlimərdan bəyə görə çox incidilib. Bu nəsil-kökün bir qolu Gəncəyə, digər qolu Tiflisə düşüb.

**– Mustafa bəy dünyaya göz açanda İrəvan özünün qaynar həyatını yaşayırmış...**

– Elədir. Mustafa bəy ilk təhsilini İrəvanda – Daşlı məhəllədə yerləşən İbadulla bəy Muğanlinskinin pansionatında alır. Bu dövrdə "Fars Abbasın oğlu" deyilən Cabbar Məmmədzadə orada dərs deyirmiş. İrəvanda bu dövrdə Abbasqulu xan Erivanski, Mirabbas Mirbabayev, Mirzə Cabbar bəy Qaziyev, Ağaxan Erivanski kimi görkəmli simalar fəaliyyət göstərirdi. Pansionatı qardaşı Mehdi və gələcəyin görkəmli ədəbiyyatşünas alimi Əziz Şəriflə birlikdə bitirən M.Topçubaşov təhsilini İrəvan şəhər gimnaziyasında davam etdirir (xatırladaq ki, o zaman İrəvanda üç gimnaziya, bir müəllimlər seminariyası və iki pansionat fəaliyyət göstərirdi). Gimnaziyanı qızıl medalla bitirən Mustafa bəy 1914-cü ildə Kiyev Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur. 1919-cu ildə təhsilini başa vurub Bakıya qayıdır. 1918-1920-ci illərdə erməni daşnaklarının İrəvanda və ətrafda törətdiyi ağılasığmaz fəlakətlər Topçubaşovlar ailəsindən də yan ötmür. Ermənilər Rza bəyi öldürüb ata bağlayırlar, at onu sürüyüb evə gətirir. Bundan sonra Topçubaşovlar ailəsi öz doğma dədə-baba yurdu İrəvanı tərk edib, Naxçıvana köçməli olurlar...

Mükəmməl təhsilli Mustafa bəy min bir əziyyətlə Azərbaycana qayıdır və yenicə açılmış Bakı Dövlət Universitetinin tibb fakültəsinin ilk müəllimlərindən olur.

O, 1926-cı ildə 20 həkimlə birlikdə Almaniyaya göndərilir və uzun müddət iş təcrübəsi keçib Vətənə qayıdır. 1930-cu ildə "Malyariya

Mustafa bəyin məzunu olduğu Kiyev Dövlət Universiteti (1919)





eplenomeqaliyasının kliniki, patoloji və cərrahiyyə müalicəsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. Həmin ildəcə Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə cərrahiyyəsi kafedrasının müdiri seçilir, 1938-ci ildə efir-yağ ağrısızlaşdırılmasını - uzun müddətli analgeziyanı kəşf etməklə, tibb elmində yeni bir səhifə açır. Bu sahə ilə bağlı bir sıra elmi konfranslarda məruzələr edir, məqalə və kitablar yazır. Ancaq alimin bu kəşfini, professor Q.Qəhrəmanovun dili ilə desək, "...illər boyu ədalətsizcəsinə tənqid edildikdən sonra, 1954-cü ildə ABŞ cərrahı Artuzionun adına çıxırlar".

**Q.Qəhrəmanovun Mustafa bəyin analgeziya tədqiqatı ilə bağlı xatırladığı daha bir epizod: "Bir dəfə SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü P.Anoxin Bakıya gəlmişdi. Laboratoriyamda olarkən dovşanlardan birinin qulağını kəsdim və dovşan sakit halda o yan bu-yana qaçdı. Anoxin söylədi ki, heç nə başa düşmədim. Dovşan ağrı hiss etmədən qaçışında davam etdi. Yenə akademik çiyinlərini çəkdi və birdən əlini başına apararaq: "Hə, başa düşdüm, Topçubaşovun analgeziyası!.." – dedi".**

1943-cü ildə Mustafa bəy SSRİ Dövlət mükafatına layiq görüldü. 1945-ci ilin yanvarında Azərbaycanda Elmlər Akademiyasının yaradılması haqqında qərar qəbul olundu və martın 27-də respublikamızın həyatında çox şərəfli bir səhifə açıldı: Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı! Akademiyaya ilk 15 həqiqi üzv seçildi: Y.Məmmədəliyev, M.İbrahimov, Ş.Əzizbəyov, H.Hüseynov, M.Qaşqay, M.Hüseynov, S.Dadaşov, S.Vurğun, İ.Yesman, Ü.Hacıbəyov, M.Mirqasımov, Ə.Əlizadə, İ.Şirokoqorov, A.Qrosheym və M.Topçubaşov!

**Professor Q.Qəhrəmanovun söhbətindən: "Müharibədən sonrakı illərdə SSRİ-nin o zamankı rəhbərlərindən birinin qadını exnakok xəstəliyinə tutulur. Müalicə üçün ən güclü həkimlər dəvət edilsə də, hamısı xəstəliyin vaxtının keçdiyini və əlaçsızlığını göstərirlər. Azərbaycan MK-nın birinci katibi M.C.Bağırov Stalinə müraciət edir ki, bəlkə bizim Topçubaşov da baxsın. Mustafa bəy təcili Moskvaya uçmalı olur və xəstəyə baxan kimi vaxt itirmədən onun əməliyyat olunmasını lazım bilir. Digər görkəmli cərrahlar ikinci yarusdan müşahidə edərkən, skalper dəyən kimi qarın nahiyəsinin o saat partlayacağını güman edirlər. Ancaq Mustafa bəy exnakok olan hissəni elə ehmalca götürür ki, heyrət içərisində olan həmkarlar ancaq bunu deyə bilirlər: "Da, eto Mustafa bek!.."**



Akademiyanın ilk 15 həqiqi üzvü





Mustafa bəy oğlu İbrahim bəy və həyat yoldaşı Reyhan xanımla

M.Topçubaşov 1950-ci ildə Beynəlxalq Cərrahlar Assosiasiyasının və keçmiş Ümumittifaq Cərrahlar Cəmiyyətinin fəxri üzvü seçilir. 1951-1955 və 1968-1981-ci illər arasında Azərbaycan SSR EA-nın vitse-prezidenti olur. Dövrü mərbuat onun bir sıra ümumdünya konfranslarında, cərrahlar konqreslərində (xüsusən Münhen, Lissabon, Leypsiq, Sofiya və s.) məruzələrini böyük maraqla izləyir, analitik yazılar dərc edir. Yeddi monoqrafiyanın, beş cildlik monumental "Xüsusi cərrahlıq" kitabının müəllifi olan görkəmli alim həyatı boyu pedaqoji fəaliyyətlə də sıx bağlı olub. Uzun illər N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda mühazirələr oxuyub, rəhbərliyi altında 30-dan çox alim namizədlik və doktorluq dissertasiyası müdafiə edib.

Mustafa bəyin ictimai fəaliyyətini xüsusi qeyd etmək lazım gəlir. O, 1955-1959 və 1967-1971-ci illər arasında Azərbaycan SSR Ali Sovetinin sədri, Azərbaycan SSR Ali Sovetinin (I-X çağırış) deputatı olub. 1950-ci ildən ömrünün sonuna qədər Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədri kimi dünyanın bir çox ölkələrində (Livan, BƏR, Bolqarıstan, Avstriya və s.) Azərbaycanı layiqincə təmsil edib, Böyük Tibb Ensiklopediyasının redaktorlarından biri, ASE-nin Baş redaksiya heyətinin üzvü olub.

**– Mustafa bəyin qızı xatirələrində atasının heç vaxt öz iradəsini çətinliklərə təslim etmədiyini, məqsəddəndönməz bir insan olduğunu xüsusi vurğulayır...**

– Bu aspektdə bir hadisəni xatırlatmaq istədim. 1950-ci il iyulun 14-də Bakı ziyalılarının konfransı keçirilib, ilk məruzəçi Mircəfər Bağırov idi. O çıxışında akademik Heydər Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" kitabını, bir növ, darmadağın edir: "Heydər Hüseynovun bu kitabı göstərir ki, Azərbaycanda humanitar elmlərin vəziyyəti o qədər də yaxşı deyil". Sonra çıxışlar başlayır. Heydər Hüseynovun haqqında nə qədər irad-iftira var, deyirlər. Yalnız və yalnız Azərbaycanda təbabət elminin inkişafından söhbət edən Mustafa bəy Topçubaşov konfransın "əsas məsələ"sindən bir kəlmə də olsun danışmır. Bu, böyük cəsarət idi!

**– Deyilənə görə, hər bir böyük kəşf kimi, analgeziyanın da taleyi çox keşməkeşli olub; bunun halal kəşfkarı Mustafa bəy Topçubaşov niyə Nobel mükafatına sahib olmadı?**

– 1977-ci ildə Nobel mükafatı Komitəsindən Azərbaycanın iki böyük aliminə – analgeziyanın banisi Mustafa bəy Topçubaşova və tibb tarixinə "Qəhrəmanov metodu", "Qəhrəmanov fistulaları"nın yaradıcısı, Neyrofiziologiya laboratoriyasının rəhbəri Qəhrəman Qəhrəmanova məktub gəldi. Kəşfləri barədə rus və ingilis dillərində məlumat və digər lazımi sənədlər göndərilməsi tələb olunurdu. Anketdən əlavə, Stokholma onların "Uzunmüddətli analgeziya – səhiyyə və fiziologiyanın problemi" kitabı göndərildi. Bir müddət sonra xəbər gəldi ki, materiallar baxılmaq üçün qəbul olunub, nəticə barədə məlumat veriləcək. Lakin 1978-ci ildə mükafatın təqdim



Mustafa bəy konsilium zamanı...

olunmasına bir neçə ay qalmış qırmızı Sovet rejiminin qara əlləri ilə "Bakinski raboçi" qəzetində (dalbadal 4 nömrədə) Alfred Nobelin əleyhinə məqalələr dərc olundu; guya o, vaxtilə Azərbaycana böyük zərərlər vurmuş, fəlakətlər gətirmişdir. Və... "tarixi həqiqətlər"i əldə rəhbər tutan Sovetlər İttifaqı heç vəchlə razı ola bilməz ki, onun alimləri belə bir adamın adını daşıyan mükafata layiq görülsünlər...

Qəhrəmanov deyirdi ki, "1978-ci ilin oktyabrında əl radiosunu götürüb bağa getdik. Radioda Nobel mükafatı laureatlarının adları çəkildi, tibb və fiziologiya üzrə nəzərdə tutulmuş mükafat heç kəsə verilmədi. Mustafa bəy mənə dedi: "Qəhrəman, mən dünyanı görə-görə gəlmişəm. Sənin başın çox qovğalıdır. Mükafat səni hücumlardan qoruya bilərdi".

Deyim ki, akademik Yusif Məmmədəliyev də belə bir tale yaşayıb. 1959-cu ildə onun kəşfinin bu mükafata təqdim edilməsi barədə məsələ Sov.İKP MK-da qoyulanda, iki nəfər – marşal Babaqunyan və marşal Babacanyan etiraz ediblər. Suslov deyir: "Axı bu böyük kəşfdir". Mikoyan müdaxilə edir ki, "yox, bu dövlət sirridir və aşkara çıxmamalıdır".

**– Mustafa bəydən gözəl ailə başçısı kimi çox danışılır...**

– Həyat yoldaşı Reyhan xanım Qubanın məşhur Hacinskilər nəslindən idi. İlk təhsilini tanınmış Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda açdığı "Qızlar məktəbi"ndə almış, 1935-ci ildə böyük Əzimzadənin rəhbərlik etdiyi Azərbaycan Rəssamlıq Texnikumunu əla qiymətlərlə başa vurmuşdu. Azərbaycan Rəssamlar İttifaqının üzvü idi, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdü.

Əkiz qızı, bir oğlu olub. Zemfira xanım ATU-nun hazırda dosent olduğu mamalıq və ginekologiya kafedrasının müdiri vəzifəsində çalışıb, "Əməkdar həkim" fəxri adına, Prezident təqaüdünə layiq görülüb. Musiqişünas-alim Elmira xanım isə Azərbaycan Musiqi Akademiyasının dosenti vəzifəsində çalışıb, "Əməkdar müəllim" fəxri adına layiq görülüb. XX əsr Azərbaycan təbabət elmində və incəsənətində özünəməxsus yeri olan, çox qısa bir ömür yaşamış, mərhum İbrahim Topçubaşov bu ailənin yeganə oğlu olub...

**- Hə, hansı ki, Reyhan xanım mərhumun yeddisinin səhəri günü dünyadan köçdü. İbrahim bəysiz yaşaya bilmədi...**

– Elədir...

**– Bəs həssas qəlbli insan, beynəlxalq aləmdə novator-cərrah, Azərbaycanda neçə-neçə unudulmaz mahnıların müəllifi kimi tanınan İbrahim Topçubaşov barədə...**

– Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü idi. İbrahim Topçubaşov 46 yaşında dünyasını dəyişdi. Yaponiyada, İtaliyada, dünyanın bir çox yüksək elm və mədəniyyət mərkəzlərində ingilis dilində mühazirələr deyən bir fenomen... Bu gənc xarici ölkələrdə hər bir məruzəni elə başlayıb, elə yekunlaşdırırmış ki, dünya şöhrətli alimlər belə heyranlıqlarını ifadə etməyə bilmirmişlər...

İbrahim Topçubaşov 1968-ci ildə Ankaranın konsert salonlarının birində ikən məşhur Nezrin Sipahi onun "Dağlarda duman gözəldi" mahnısını ifa edirmiş. İbrahim bəy fasilədə xanımdan bu şarkının bəstəçisini soruşur və məlum olur ki, müğənni bəstəkarın adını bilmir...

Onun 70 illik yubileyində geniş, alovlu, ağrı-acı dolu bir xiffətlə çıxış edən Qəhrəman Qəhrəmanov üzünü tədbirdə iştirak edən bir Xalq artistinə tutub deyir: "Siz İbrahimin mahnılarına tez-tez müraciət edin. Çünki onun ustad, cərrah əlləri kimi, gözəl, bəstəkar qəlbi də var...

**– Əsgər müəllim, təbii ki, müsahibəmizi söhbətimizin əsas hədəfi olan dünya şöhrətli cərrah M.Topçubaşovla yekunlaşdırmalıyıq...**

– 1995-ci il iyulun 31-də Respublika Prezidentinin Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illiyi münasibətilə verdiyi sərəncam və bu yubileyin dövlət səviyyəsində Opera və Balet Teatrında təntənəli şəraitdə keçirilməsi onun elm aləmindəki yerini bir daha dəyərləndirmiş oldu. Düz 50 il işlədiyi iş otağında xatirə muzeyi yaradılıb, yüksək peşəkarlıq səviyyəsi, elmi tibbi yaradıcılığı, ümumən geniş fəaliyyəti haqqında yerli və xarici nəşrlər, monoqrafiyalar, saysız məqalələr işıq üzü görüb. Öz böyük şəcərəsini, nəsil-kök genini, 86 illik şərəfli ömrü ilə davam etdirmiş bu böyük şəxsiyyət haqda xalqarası xoş söhbətlər, "qızıl" xatirələr də öz yerində... ❖

Samirə Hidayətqızı



Mustafa bəy ailə üzvləri ilə